# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva müharibə və əmək əlilləri üçün pansionatda olub

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bilgəh qəsəbəsindəki müharibə və əmək əlilləri üçün pansionatda olub.

Leyla Əliyeva pansionatın sakinləri ilə görüşərək onlarla söhbət edib.

Heydər Əliyev Fondu mütəmadi olaraq bu pansionatda görüşlər təşkil edir. Budəfəki ziyarəti zamanı Leyla Əliyeva pansionatda yaşayanlara müxtəlif sovqatlar verib, o cümlədən öz şeirlər kitabını imzalayaraq hədiyyə edib və şeirlərindən bəzilərini oxuyub.

Müharibə və əmək əlilləri üçün pansionat ötən əsrin 60-cı illərindən fəaliyyət göstərir. 2013-cü ildə pansionatda tikilmiş yeni korpusun açılışı olub.

Heydər Əliyev Fondu müntəzəm olaraq uşaq evləri və internat məktəbləri ilə yanaşı, ahıllarla da görüşlər təşkil edir, onların qayğıları ilə maraqlanır.

***AZƏRTAC***



